# HƏYA DİNİ VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRİMİZ KİMİ
## (Hədisi-şəriflər və atalar sözləri kontekstində)

**Müəllif**: Dr. İbrahim Zöhrab oğlu Quliyev (Azərbaycan)[1]

**Alınan Tarix**: 05/09/2015 **Qəbul Tarixi**: 28/02/2016

**Məqalənin xülasəsi**
Azərbaycan xalqının milli-mədəni dəyərləri arasında, mentalitetində abırlı olmaq, həyalı olmaq, həyanı qorumaq özünəməxsus yer tutur. Hələ qədim zamanlardan azəri türkləri öz ismətliliyi, abırlı, həyalı olması ilə tanınmış, həyasına, ismətinə xələl gətirməkdənsə, ölməyi üstün tutmuşlar. İstər qadın olsun, istərsə də kişi öz həyasını, abrını, ismətini qorumağa çalışmış, bu yolda ölümə getməkdən belə çəkinməmişlər. Şifahi xalq ədbiyyatında-nağıllarda, bayatılarda, dastanlarda bu mövzuya tez-tez toxunulmuş, ən önəmli mövzulardan birinə çevrilmişdir.

**Açar sözlər:** Həyalı olmaq, İslam, Quran, Məhəmməd (s)

## Giriş
Həya sözü lüğətdə utanma, çəkinmə və s. mənalara gəlir. Həmçinin əxlaq termini olaraq "nəfsin çirkin davranışlardan narahat olub onları tərk etməsi", "pis bir işin edilməsindən və ya yaxşı bir işin tərk edilməsindən görə insanın üzünü qızardan sıxıntı" kimi dəyişik şəkillərdə açıqlanmışdır. Ərəb dilində qınama, tənqid, qürur qırıcı davranış mənalarına gələn "ar" kəlməsi də dilimizdə sinonim olaraq işlədilməkdədir. (1, c. XVI, səh. 554).

---

1. Fəlsəfə üzrə fəlsəfə doktoru, Bakı İslam Universitetinin müəllimi, Bakı, Azərbaycan, quliyev.ibrahim.78@mail.ru

## Həya dininin milli-mənəvi dəyərlərimizdə təcəllası

Uca dinimiz İslamda utanmaq hissi, həya çox önəmli görülmüş, insanın həyalı olması, hətta həyanın imanla bilavasitə sıx əlaqədə olması açıq-aşkar bildirilmişdir. Müqəddəs kitabımız olan Qurani-kərimdə üç ayədə həya kəlməsinin törəmələri keçməkdədir. (1, c. XVI, səh. 554). Allah taala Qurani-kərimdə belə buyurmuşdur:

"Allah həqiqəti söyləməkdən həya etməz." (2, Əhzab-53).

Adətən həya edib utanılacaq bəzi məsələlərin soruşulması və ya açıqlanması xüsusunda dinimiz həyanı doğru saymır. Həzrət Peyğəmbər (s) də yeri gəldiyi zaman o cür mövzulara bu ayəni oxuyaraq çəkinmədən girmişdir. Peyğəmbər (s) "Həyanın tamamı xeyirdir" deməklə hər növ çirkinlik, haqsızlıq və pisliklərdən çəkinmə və qaçmanın xeyir olduğunu bildirmişdir. Həmçinin Peyğəmbərimiz (s) həyanın insanlıq tarixindəki yerini də belə müəyyən etmişdir:

"Şübhəsiz ki, insanların peyğəmbərlik sözlərindən ilk eşitdikləri şey: "Utanmırsan istədiyini et" ifadəsidir.

Peyğəmbərimizin (s) "utanmırsan dilədiyini et" ifadəsinin mənası belədir: Bir şeyi etmək istədiyində əgər etdiyindən dolayı Allahdan və insanlardan utanmırsa, istədiyini edər, əks halda etməz. İslam tamamilə bu əsas üzərində cərəyan edir. Buna görə Peyğəmbərimizin (s) "istədiyini et" sözü mübah olan mövqeyindədir. (4, səh. 101).

İmam Əlinin (ə) həya haqqındakı aşağıdakı fikirləri çox önəmli əhəmiyyət daşıyır. Belə ki, İmam (ə) belə buyurur:

"Həya hər gözəlliyə və yaxşılığa çatmaq üçün vasitədir." (5, c. 77, səh. 211 , hədis № 1).

"Həya bütün yaxşılıqların açarıdır." (6, hədis № 340).

"İnsanların ən ağıllısı onların ən həyalısıdır." (6, hədis № 2900).

"Həya pisliyə mane olar." (6, hədis № 1393).

"Həya iffətliliyin səbəbidir." (6, hədis № 5527).

Allahın Peyğəmbəri (s): “Hər dinin öz təbiəti vardır, İslamın təbiəti də həyadır.” (6, hədis № 5757).

İmam Sadiq (ə): “Həyası olmayanın imanı yoxdur.” (7, c. II, səh. 106 , hədis № 5).

Həyanın qınanıldığı hallar haqqında Allahın Peyğəmbəri (s) belə buyurur: “Həya iki növdür: əqldən doğan həya və ağılsızlıqdan törəyən həya. Əqlin həyası elmdir, axmaqlığın həyası isə cahillik.” (5, c. 77, səh. 149 , hədis № 75).

İmam Əli (ə): “Utancaqlıq məhrumiyyətə yaxındır.” (6, hədis № 6714).

İmam Əli (ə): “Utancaqlıq ruzinin yolunda maneədir.” (6, hədis № 274).

İmam Əli (ə): “Kim haqqı deməyə utanırsa axmaqdır.” (6, hədis № 8650).

Həyasızlığın nəticəsi çox ağır olur. Bunu nəzərə alan Allahın Peyğəmbəri (s) belə bəyan edir: “Peyğəmbərlərin (ə) misallarından xalq arasında bu sözdən başqa bir şey qalmayıb: “Həyan olmasa, istədiyin hər işi et.” (8, c. II, səh. 95, hədis № 207).

İmam Əli (ə): “Xalqdan həya etməyən kəs, Sübhan olan Allahdan da həya etməz.” (6, hədis № 9071).

Allahın Peyğəmbəri (s): “Allahdan öz yaxşı qonşularından həya etdiyin kimi həya et. Çünki Allahdan həya etmək əminliyi artırar.” (5, c. 78, səh. 200, hədis № 28).

Allahın Peyğəmbəri (s): “Hər biriniz gecə və gündüz sizin kənarınızda olan iki mehriban qonşudan həya etdiyiniz kimi, özünüzlə birgə olan iki mələkdən də həya etməlisiniz.” (9, hədis № 5751).

İmam Kazim (ə): “Aşkarda insanlardan həya etdiyiniz kimi, gizlində də Allahdan həya edin.” (10, səh. 394).

Həya insanın insanlıq zirvəsi hesab olunur. Bu haqda İmam Əli (ə) belə buyurur: "Həyanın zirvəsi, insanın özü-özündən həya etməsidir." (6, hədis № 6369).

Bütün bu deyilənlərdən əlavə İslam abır-həyalı olmağa həvəsləndirməyi də vacib sayır.

İmam Əli (ə): "Malına ən çox xəsis olan insanlar, öz abır-həyalarında daha əliaçıq olanlardır." (6, hədis № 3190).

İmam Əli (ə): "Ən yaxşı sərvət odur ki, abır-həyanın qorunmasına səbəb olsun." (6, hədis № 3038).

İmam Əli (ə): "Kim öz abrını sevirsə, dava-dalaşdan çəkinməlidir." (11, hikmət-362).

Müsəlmanların heysiyyatına toxunmaqdan çəkinməyin çox böyük savabı vardır. Bu haqda İmam Səccad (ə) buyurur: "Kim müsəlmanların heysiyyatına toxunmaqdan çəkinsə, Allah qiyamət günündə onun büdrəyişlərini bağışlar." (12, səh. 85, hədis № 195).

Peyğəmbər (s) həyanın İslam dinində mövqeyini bildirmək üçün belə buyurmuşdur:

"Həya imandan bir şöbədir. Həyası olmayanın imanı olmaz."

İbnu Məsuddan gələn rəvayətdə belə deyilir:

"Peyğəmbər (s) "Allahdan haqqı ilə həya edin" buyurdular. Biz: "Ey Allahın Rəsulu əlhəmdulillah, biz Allahdan həya edirik" dedik. Ancaq O, bu açıqlamanı etdi: "Söyləmək istədiyim bu deyil. Allahdan haqqı ilə həya etmək, başı və onun daşıdıqlarını, bətni və onun əhatə etdiklərini mühafizə etmən, ölümü və torpaqda çürüməyi xatırlamandır. Kim axirəti istərsə dünya həyatının zinətini tərk etməli, axirəti bu həyata dəyişməlidir. Kim bu deyilənləri yerinə yetirərsə, Allahdan haqqı ilə həya etmiş olur. (13, Qiyamət-25).

**Əbu Səid əl-Xudri belə nəql edir**

"Peyğəmbər (s) çadırdakı bakirə qızdan daha çox həya sahibi idi. Xoşlanmadığı bir şey görmuşsə, biz bunu üzündən tez anlayardıq." (3, Ədəb-77).

Bir hədisində isə Peyğəmbərimiz (s) belə buyurmuşdur:

"Hər bir dinin özünə xas bir əxlaqı vardır. İslamın əxlaqı həyadır." (14, Zöhd-17).

Başqa bir hədisi-şərifində isə Peyğəmbərimiz (s) belə demişdir:

"Ədəbsizlik və çirkin sözün daxil olduğu hər bir şey çirkinləşir. Həyanın daxil olduğu hər bor şey isə gözəlləşir." (13, Birr-47).

Fəlsəfə mədəniyyətindən də yararlanaraq həya mövzusunda psixoloji və əxlaqi təhlillər edən Qəzaliyə (öl.1111) görə uşaqda yetkinliyin ilk əlamətlərindən biri həya duyğusunun əmələ gəlməsidir. Uşağın xəcalət hiss edib bəzi əməlləri tərk etməsi onda ağıl işığının parıldamasının göstəricisidir. Beləliklə uşaq, öz mühakiməsi ilə bəzi şeyləri çirkin görməyə və onlardan etməkdən çəkinməyə başlayar. Qəzali bu andan etibarən uşağın tərbiyəsi ilə maraqlanmanın əhəmiyyətini müəyyənləşdirərək bu tərbiyəyə yemək və süfrə ədəbindən başlanmasını tövsiyə edir. (1, səh. 555).

Mavərdi uşaqda gözlənən həyanı, onun təbiətindəki səmimiyyətdən qaynaqlanması səbəbi ilə böyüklərin yalan ehtimalı daşıyan həyasından daha dəyərli sayır. (1, səh. 555). Həya ilə ağıl arasında əlaqə qurma və beləcə həyanı sadəcə bir duyğu deyil, eyni zamanda bir düşünmə və mühakimə məhsulu olaraq dəyərləndirmə təmayülü Qəzalidən başqa alimlərdə də görülür. Bu vəziyyət İslami düşüncədə ağlın həm bir zehni aydınlanma, həm də əxlaqi aydınlanma vasitəsi olaraq düşünülməsindən qaynaqlanır. (1, səh. 555).

Azərbaycan xalqının milli-mədəni dəyərləri arasında, mentalitetində abırlı olmaq, həyalı olmaq, həyanı qorumaq

özünəməxsus yer tutur. Hələ qədim zamanlardan azəri türkləri öz ismətliliyi, abırlı, həyalı olması ilə tanınmış, həyasına, ismətinə xələl gətirməkdənsə, ölməyi üstün tutmuşlar. İstər qadın olsun, istərsə də kişi öz həyasını, abrını, ismətini qorumağa çalışmış, bu yolda ölümə getməkdən belə çəkinməmişlər.

Şifahi xalq ədbiyyatında-nağıllarda, bayatılarda, dastanlarda bu mövzuya tez-tez toxunulmuş, ən önəmli mövzulardan birinə çevrilmişdir. Bu haqda danışarkən, Azərbaycan xalqının min üç yüz illik tarixi olan ən qədim dastanı "Kitabi Dədə Qorqud" dastanındakı "Qazan xanın evinin yağmalanması" boyunda Qazan xanın evini talayıb aparan Qıpçaq Məlik, Burla Xatunu "qırx gözəl"in içindən tanımaq üçün, Qazan oğlu Turalı tikə-tikə doğradıb, qaraciyərindən qara qovurma bişirəcəyi ilə hədələyir.

Lakin Tural anasının tanınmaması üçün buna razı olur. Ancaq özünü yetirən Qazan xan ailəsini xilas edir. Bu boyda Turalın öz anasını, namusunu, həyasını qorumaq üçün nələrə razı olduğunu oxucu açıq-aşkar görür.

Şifahi xalq ədəbiyyatının digər növlərində olduğu kimi, atalar sözlərində də həya haqqında çox gözəl ifadələr vardır. Bu ifadələrə misal olaraq aşağıdakı atalar sözlərini göstərmək olar:

"Həya imandandır." (15, səh. 128). "Həyasız atlını atdan salar." (16, səh. 646). "Həyalı qızarar, həyasız ağarar." (15, səh. 128). "Həya üzdə bir qətrə sudu." (15, səh. 128). "Həyasızda insaf olmaz, insafsızda həya." (16, səh. 129). "Həyasıza salam ver, keç." (15, səh. 129). "Utanmasan  toyda oynamağa nə var ki." (17, səh. 100).

Misal olaraq verdiyimiz atalar sözlərində oxucuda həyanın nə demək olduğu, həyalı insanın necə olması, həyasız insanın necə olması haqqında fikir formalaşır, həyasını qoruyan, həyalı şəxslərə qarşı müsbət fikirlər oyanır. Həyasız insanlara qarşı isə, oxucuda ikrah hissi oyanır.

Müsəlmanların heysiyyatını qorumağın da çox böyük savabı vardır. İmam Sadiq (ə) buyurur: “Allahın yalnız insanlar üçün müəyyənləşdirdiyi və heyvanların məhrum olduğu xüsusiyyət həyadır.”

Həya çox böyük dəyərləri əhatə edir. Adətən, həyadan məhrum insan heç bir əxlaqi dəyər tanımır. Onlar əhdinə əməl etmir, əmanəti sahibinə qaytarmır. Yalan danışır, bütün alçaq sifətlərə qucaq açır. İnsanı bir çox əxlaq qüsurlarından amanda saxlayan həyadır.

İnsanda həya iki yolla yarana bilər: eyibsiz olmaq istəyi və eyibləri örtmək arzusu. İnsanın çirkin işindən başqaları xəbər tutur. Yəni gizli eyib aşkarlanır. İnsan xəcalət çəkməyə başlayır və narahat olur. İmam Sadiq (ə) buyurur ki, həyanın faydası xəcalət gətirəcək işlərin qarşısının alınmasıdır. İnsan öz eyibinin açılmasını istəmir və daim bu eyibləri gizlətməyə çalışır. Bu xüsusiyyət insanı heyvandan fərqləndirən əsas xüsusiyyətdir. Quranda oxuyuruq ki, Adəm və Həvva qadağan olunmuş meyvədən yeyən kimi eyibləri açıldı. Maraqlıdır, eyibin açıqlamasının səbəbi yeyilən meyvənin xüsusiyyəti idi, yoxsa bu meyvəni yeyən öz eyibindən xəbər tuturdu? Hər halda, bu işdə meyvə təsirli olmuşdur.

Demək, eybini gizli saxlamaq insanın fitri istəyidir. İnsanı belə hallarda narahat edən məhz həya hissidir. Övliyaların həyası bütün bəşəriyyət üçün nümunədir. Səlman Farsi və bir çox başqa övliyalar ömrünün sonunadək öz ayıb yerinə baxmamışdır.

Öz eyiblərindən çəkinməyən insan bütün çirkin işlərə gedər. Yalnız eyibsizlik arzusunda olanlar xəcalət çəkir.

Nəfsinə hörmət edən insan hər cür nöqsanlardan qaçmalı və nəfsini pak saxlamalıdır. İnsan kamil olmaq istədiyi üçün xəcalət çəkə bilər. Əgər kamillik, mömінlik, insanlıq arzusu yoxdursa, həyadan danışmağa dəyməz.

Beləliklə, yuxarıda verilən misallarda göründüyü kimi, istər atalar sözlərində, istərsə də ayədə, hədisi-şəriflərdə, habelə fəlsəfədə həya mövzusunun əhəmiyyətinin olduqca böyük olduğu görülür.

Həyanın bilavasitə din ilə sıx əlaqəsi, İslam dininə xas olan bir əxlaq sayılması onun mövqeyini daha da gücləndirir.

Nəticə etibarilə həya haqqında deyilən hədislərin bu mövzuda olan atalar sözlərinə qaynaq olduğu görülməkdədir.

**Resume**

The meaning of modesty in dictionary is shy, reserved and so on. Also in terms of ethics - push aside from bad nafs, habits, bad things. From Arabic word " ar " which has a value condemnation, criticism, proud behavior also used as a synonym in our language.

**Mənbələr**

1. Əllamə Amədi, Qürərül-hikəm və dürərül-kəlam, təhqiq: mərkəzül-əbhas vəd-dirasatil-İslamiyyə, məktəbətül-əlamil-İslamiyyə nəşri, II çap, 1420 h/q.
2. Əllamə Əli Müttəqi əl-Hindi, Kənzül-ümmal, məktəbətu dairətil-məarif, I çap, Heydərabad, 1313 h/q.
3. Əbu İsa ət-Tirmizi, Sünəni-Tirmizi, daru ehyait-türsil-ərəbi, Beyrut, tarixsiz.
4. Əllamə Məclisi, Biharül-ənvar, müəssisətül-Vəfa, Beyrut, 1983.
5. Əbu Məhəmməd Həsən bin Əli əl-Hərrani, Tühəful-üqul, müəssisətu Ələmi, VI çap, Beyrut, 1417/1996.
6. Cəlal Bəydilli, Atalar Sözləri, Öndər nəşriyyat, Bakı, 2004.
7. Hamid Qasımzadə, Atalar Sözü, Yazıçı nəşriyyatı, Bakı, 1985.
8. İbn Macə, Əbu Abdullah bin Yəzid ər-Rəbi, Sünəni-İbn Macə, darus-salam yayınları, Riyad, 1999.

9. İmam Nəvəvi, Qırx hədis, tərc: İbrahim Hatiboğlu, Kahraman yayınları.
10. Məhəmməd bin İsmail əl-Buxari, Səhihi-Buxari, ər-Riyad, 2000.
11. Məhəmməd bin Yaqub əl-Küleyni, Üsuli-kafi, I nəşri, Beyrut, 1429/2008.
12. Məhəmməd Mehdi Nəcəf, Səhifətül-İmam Rza (ə), I çap, 1406 h/q.
13. Mustafa Çağrıcı, “Haya”, Diyanət İslam Ensiklopediyası, c. XVI, İstanbul, 1997.
14. Qurani-kərim, tərc: Z. Bünyadov, V. Məmmədəliyev, Bakı, Azərnəşr, 1991.
15. Seyid Rəzi, Nəhcül-bəlağə, tərc: Ağabala Mehdiyev və b. İİR, mədəniyyət mərkəzi, 2009.
16. Şeyx Səduq, Üyuni-əxbarir-Rza (ə), inşaratüş-Şərif ər-Rəzi, I çap, tarixsiz.
17. Paşa Əfəndiyev, Azərbaycan Şifahi Xalq Ədəbiyyatı, Maarif nəşriyyatı, Bakı, 1981.
18. Ustad Misbah Yəzdi, Sadiq yol axtaranlar üçün imam Sadiqin (ə) nəsihətləri, I çap, tarixsiz.